# Görkəmli dövlət xadimi Əziz Əliyevin nəsil şəcərəsi və onun Şərur mahalında yaşaması haqqında bir yarpaq xatirə

*Xalqımızın qüdrətli oğlu, siyasi və dövlət xadimi, Azərbaycanda səhiyyə işinin bacarıqlı təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin həyat yolu qədim oğuz diyarının Çuxur Səd-İrəvan xanlığının Abaran mahalındakı Hamamlı kəndindən başlayaraq İrəvan-Çita-Sankt-Peterburq-Naxçıvan-Bakı-Mahaçqala-Moskva-Bakı şəhərlərindən keçmişdir.*

*Əziz Əliyev 110 il bundan əvvəl - 1897-ci il yanvarın 1-də qədim türk yurdu Hamamlıda anadan olmuşdur. Atası Məmmədkərim Kərbəlayi Qurbanəli oğlunun olduqca maraqlı nəsil şəcərəsi vardır. Kərbəlayi Qurbanəli İrəvan xanlığının sayılıb-seçilən insanlarından olmuşdur. Onun Hamamlıda geniş ərazidə torpaq sahələri və biçənəkləri olub. Keçən yüzilliyin 80-ci illərinədək "Kalba Qurbanəlinin biçənəyi" xalq arasında eşidilirdi.*

İrəvanın mötəbər xanlarından biri Əli xan Kərbəlayi Qurbanəlinin qızı ilə ailə qurmuşdu. Sonralar o, qayınatasına İrəvan şəhərində yaraşıqlı bir mülk də bağışlamışdı. Və onlar həmin vaxtdan da köçüb İrəvanda yaşamağa başlamışdılar. Hələ çar Rusiyası dövründə Kərbəlayi Qurbanəlinin övladları yaxşı təhsil almış və necə deyərlər, Nikolay hökuməti dövründə ad-san sahibi olmuşdular. Onun oğlu Əkbər (bəzən sənədlərdə Ələkbər də yazırlar) Zəngibasar mahalında uryadnik işləmişdir. O, çox igid bir adam olmuşdur. Onun qohumu və dostu olan Əsəd Cəfərovun dilindən yazılmış bir xatirə dediklərimizi bir daha təsdiqləyir: "Bir dəfə İran şahı gəlib İrəvandan Tiflisə gedərkən, onu qarşılayanlardan biri də Əkbər olmuşdur. O, İran şahının qarşısında at oynatmış, atı dördnala çaparaq neçə metrdən bir yerə düzülmüş dəmir pulları bir-bir yerdən yığmışdı. İran şahı onun bu məharətinə heyran qalmış, oradaca onun İranın ən yüksək ordenlərindən biri ilə təltif olunması haqqında sərəncam vermişdir. Əkbəri və iki oğlunu - Paşanı və Həmidi Şorkənd kəndinin cahil adamları namərdcəsinə məhv etmişdilər. O ailədən yoldaşı, Lətif adlı balaca oğlu və qızları təsadüf nəticəsində sağ qalmışdılar".

Əkbər Əliyevi və iki oğlunu məhv edən 1919-1920-ci illərin daşnak rejimi olmuşdu. İki oğlu və iki qızı 1920-ci ildən sonra Azərbaycana köçmüşdür.

Əziz Əliyevin atası Məmmədkərim Qurbanəli oğlu dövrünün ziyalı adamlarından olmuşdur. 1918-1920-ci illərdə Şərur mahalında yaşamışdır. Daşnaklar Şərura hücum edən vaxt camaatla birgə İrana getmiş və orada Podkax kəndində dünyasını dəyişmişdir.

Arxiv sənədlərindən məlum olur ki, Əziz Əliyevin əmisi Əkbər Fətəlixan Xoyskinin yaxın dostlarından olmuşdur.

Əziz Əliyevin ata tərəfinin nəsil şəcərəsini aşağıdakı kimi tərtib edə bildik: Kərbəlayi Qurbanəli, qızı Umgülsüm, oğlanları Əkbər və Məmmədkərim.

Əkbərin oğlanları: Paşa, Həmid, Lətif, Məcid. Qızları: Telli və Zərri. Məmmədkərimin oğlanları: Əziz və Ziyad. Qızları: Tərlan, Göyçək və Şamama. Əziz Əliyevin övladları: Zərifə, Dilbər, Tamerlan, Gülarə və Cəmil. Onun nəsil şəcərəsini hazırda yaşayan nəsil davamçılarının siyahısı ilə xeyli genişləndirmək olar.

Əziz Əliyev ana tərəfdən də zəngin nəsil şəcərəsinə malikdir. Anası Zəhra xanım İrəvanın ən varlı tacirlərindən olan İbrahimbəy Süleymanbəyovun qızı olub. Dayısı Məhəmməd bəy Süleymanbəyov inqilabdan əvvəl İrəvan uyezdlərinin birində pristav işləmişdir.

Qeyd etmək yerinə düşər ki, onun adına 1914-cü ilin məlumat kitablarında və "Kavkazskiy kalendar"da tez-tez rast gəlinir. O, Gəncə üsyanının təşkilatçılarından olmuşdur. Məhəmməd bəyi daşnaklar 1920-ci ildə güllələyiblər.

İbrahim bəyin digər qızları irəvanlı Qədimbəyovların, Qazıbəyovların və Qasımbəyovların gəlinləri olublar. Əziz Əliyevin ana tərəfinin nəsil şəcərəsi aşağıdakı kimidir: İbrahim bəy, oğlu Məhəmməd bəy, qızları - Zəhra xanım, Matan xanım, Leyla xanım, Bülbül xanım, Şövkət xanım.

Əziz Məmmədkərim oğlu 1917-ci ildə İrəvan Kişi Gimnaziyasını əla qiymətlərlə bitirmiş, Peterburq Hərbi-Tibb Akademiyasına oxumağa getmişdir.

O, 1918-ci ilin may ayının sonlarında, ikinci kursa keçərkən İrəvana qardaşının və anasının yanına gəlir. Azğınlaşmış daşnakların ucbatından Peterburqa qayıda bilmir. Anasını və kiçik qardaşını götürüb Şərur mahalına gəlir. Əslində, İrəvan mahalının əhalisinin əksəriyyəti Naxçıvana və Şərura gəlib sığınacaq tapmışdılar. Zəhra xanım Süleymanbəyovanın ata-babaları Şahtaxtinskilərlə yaxın dost və qohum olduğundan onlar gəlib Şahtaxtı kəndində, Şahtaxtinskilərin mülkündə, daha doğrusu, İbrahim ağanın malikanəsində yerləşirlər və burada xüsusi qayğı görürlər. İbrahim ağanın həyat yoldaşı Qarxunlu Hacı ağanın qızı Zivər xanımın onlar haqqında xatirələrinə saatlarla qulaq asmışam. Yadımdadır, 1980-ci ildə atam məni Zivər xanımgilə apardı. Onlar bir-birini yaxşı tanıyırdılar. Atam ondan xahiş etdi ki, Şahtaxtinskilərdən, Süleymanbəyovlardan, Məmmədxanovlardan və digər nəsillərin tarixi xidmətlərindən mənə danışsın. Hətta lazım gələrsə, mənə yazdırsın. Zivər xanım həyatının xoş çağlarını və bolşeviklərin amansız zülmünü görmüşdü. Qocalıb ikiqat yerisə də, çox güclü yaddaşı var idi. İlahi, nələr vardı bu zadəgan qızının yaddaşında. 1918-1920-ci illərin əksər hadisələri, döyüşlər, vuruşlar və bolşevik həbsləri...

Həmin vaxtlar o, Şahtaxtıda 1923-cü ilin yayınadək yaşamış Əziz Əliyev və onun anası Zəhra xanım, həmçinin həyat yoldaşı Leyli xanım haqqında ürək dolusu danışırdı. Bəzən gözlərini yumub deyirdi ki, hamısı gözlərimin önündədir: "Bir neçə ailə, o cümlədən Zəhra xanımla oğlanları bizim malikanədə yaşayırdılar. İbrahimbəy Süleymanbəyovla mənim qayınatam Hacı Vəli Ağa çox yaxın dost olmuşdular. Hacı Vəli Ağa 1911-ci ildə, İbrahim bəy isə 1900-cü ildə vəfat etsələr də, övladları onların dostluğunu davam etdirirdilər. Bizim qızlardan biri onların gəlinləri olub. Buna görə də biz birevli kimi yaşayırdıq. Onlar 1918-ci ilin sentyabrında Şahtaxtıya gəldilər. Əziz çox gənc olsa da, olduqca savadlı idi. Şahtaxtıda o, Hüseynqulu həkimin yanında həkim köməkçisi işləməyə başladı. Şahtaxtı camaatını çox vaxt pulsuz müalicə edirdi.

20-ci ilin mayında erməni daşnaklarının Şərura amansız hücumu yenidən başlandı. Onlar birbaşa Şərur mahalının gömrük məntəqəsi olan Şahtaxtıya gəlirdilər. Ona görə də biz, demək olar ki, kəndin hamısı müvəqqəti olaraq Arazın o tayındakı Ərəblər kəndinə keçməli olduq. 1920-ci ilin noyabrından 1921-ci ilin avqustuna qədər Əziz Əliyev orada həkim köməkçisi işlədi. Nə qədər xeyirxah gənc idi. Bütün qaçqınların qayğısına qalırdı. Çox heyif ki, Zəhra xanımı orada itirdik. Onu Ərəblərdə dəfn etdik. Bilirsənmi, oğul, necə qayğıkeş, son tikəsini qonum-qonşuyla yarı bölən idi. Belə insanlar az-az doğulurlar..."

Zivər xanımın birdəncə qaməti dikəlir: "Ay oğul, mənə bir yaxşı silah versəydilər, bax, elə indinin özündə bu Naxçıvanda gəzən daşnakları "of" demədən güllələrdim. Siz bilmirsiniz, çox cavansınız, onlar necə vəhşiliklər törədiblər".

Keçib gedən gecənin dərinliyində həmin anı təkrar-təkrar anıram... Heç nə artırmıram. Necə var, eləcə də yazıram: "Hə oğul, mətləbdən uzaqlaşmayaq. 1921-ci ilin yayında Şahtaxtıya qayıtdıq. 1921-ci ilin, gərək ki, dekabr ayından 1923-cü ilin mayın sonunadək Əziz Əliyev yenə də Şahtaxtı kəndində həkim köməkçisi işlədi.

Onu da deyim ki, Əziz Əliyevin toyu Şahtaxtıda oldu. O, irəvanlı tacir Hacı Cabbar Abbasovun yeganə qızı və gözəl bir insan olan Leyli xanımla ailə qurdu. 1921-ci ilin oktyabr ayında oğlanları Tamerlan, 1923-cü ilin aprel ayında qızları Zərifə xanım Şahtaxtı kəndində dünyaya göz açıblar.

Əziz həkim mənim qayınım, istedadlı mayor rəhmətlik Əliqulu ağa Şahtaxtinskinin dul qalmış qadını Tovuz xanımın evində yaşayırdı. Tovuz xanım Məmmədağa Şahtaxtinskinin bacısıdır" (***Səhv etmirəmsə, o ev indi də durur*** - **müəllif**).

Birdəncə Zivər xanım deyir: "Ay oğul, sənin ata nənən Xoşqədəm də bizimlə Ərəblərə keçmişdi. Zəhra xanımla sözləri tuturdu, çox dərdləşirdilər... Əziz Əliyev və ailəsi 23-cü ilin mayında Bakıya köçdülər. 1969-cu ilin mayında Zərifə xanım həyat yoldaşı ilə gəlib həmin doğulduğu evə baxdı".

Bu yazımda bir nəfərin kiçicik, amma mənaca böyük xatirəsindən danışdım. Amma Şahtaxtı kəndində bir neçə ağsaqqal və ağbirçəkdən (indi onların hamısı dünyalarını dəyişiblər) Əliyevlər haqqında maraqlı xatirələr toplamışam. Bu xatirələrin hamısında dərin səmimiyyət və ürəkdən gələn məhəbbət var.

Böyük ürək sahibi olan Əziz Əliyev ömrünün sonunadək Naxçıvanı, Şərur mahalını, o cümlədən Şahtaxtı kəndini unutmadı, yada saldı. Yeri gələndə kömək əlini uzatdı. Onun dəniz kənarında yerləşən evinin qarşısı həmişə naxçıvanlıların üzünə açıq idi. Çünki həm Əziz müəllim, həm də Leyli xanım etibarda, sədaqətdə ad çıxarmış qədim nəsillərin layiqli davamçıları idilər. Onlar həmişə qədirbilən Naxçıvan camaatının yaddaşında diridirlər, sağdırlar.

**Musa QULIYEV,**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi**